QANUN № 08 (382), 2026, s.136-142

Mürşüdov Rəşad Ramil oğlu,
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Cinayət hüququ və kriminologiya kafedrasının doktorantı
E-mail: mursudov.resad77@mail.ru
Ünvan: Bakı, Akademik, 33 Zahid Xəlilov küçəsi

UOT 343.2/.7
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1143

ZORLAMA CİNAYƏTLƏRİNDƏ TƏQSİRİN EHTİYATSIZLIQ FORMASI: KONSEPTUAL ƏSASLAR VƏ MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİL

***Açar sözlər**: zorlama, ehtiyatsızlıq, razılıq, müqayisəli hüquq*

***Ключевые слова**: изнасилование, неосторожность, согласие, сравнительное право*

***Keywords:** rape, negligence, consent, comparative law*

Giriş

Müasir cinayət hüququnda şəxsiyyətin cinsi azadlığı və cinsi toxunulmazlığı əleyhinə olan cinayətlərin, xüsusilə də zorlama cinayətinin qanunvericilik səviyyəsində tənzimlənməsi ciddi islahat mərhələsindən keçməkdədir. Tarixən bir çox hüquq sistemində zorlama cinayətinin tərkibi yalnız fiziki güc tətbiqi, hədə-qorxu və ya zərərçəkmişin fiziki müqavimətinin qırılması elementlərinə əsaslanırdı, lakin son onilliklərdə həm beynəlxalq hüquqi standartların, həm də ictimai hərəkatların təsiri ilə hüquq sistemlərində mühüm bir keçid yaşanır. Hüquq artıq "məcburetmə və müqavimət" prinsipinə deyil, tərəflərin "qarşılıqlı razılığı" və "könüllülüyü" modelinə əsaslanmağa başlayır. Bu transformasiya fonunda ortaya çıxan ən mübahisəli və mürəkkəb konseptlərdən biri zorlama cinayətinin ehtiyatsızlıqla törədilməsinin kriminallaşdırılmasıdır. Şəxsiyyətin cinsi azadlığı əleyhinə cinayətlərdə ehtiyatsızlıq konsepti, təqsirləndirilən şəxsin zərərçəkmişin razılığının olmamasından xəbərsiz olduğu, lakin bundan şübhələnməli və ya bunu bilməli olduğu vəziyyətləri əhatə edir. Bu yanaşma hüquq nəzəriyyəsində ciddi müzakirələrə səbəb olmuşdur. Bir tərəfdən, zərərçəkmişlərin hüquqlarının müdafiəçiləri iddia edirlər ki, ehtiyatsızlıqdan zorlamanın kriminallaşdırılması zərərçəkmişlərin cinsi avtonomiyasını daha effektiv qoruyur, təcavüzkarların "razılığa dürüst, lakin əsassız inam" iddiaları ilə məsuliyyətdən yayınmasının qarşısını alır, cəmiyyətdə cinsi davranış normalarını müsbət istiqamətdə dəyişir. Digər tərəfdən isə mənəvi günahkarlıq prinsipinə (moral culpability) əsaslanan hüquqşünaslar qeyd edirlər ki, cinayət məsuliyyəti yalnız subyektin mənəvi cəhətdən tam qınanıla bilən olduğu hallarda tətbiq edilməlidir və ehtiyatsızlıq bu cür ağır cinayətin daşıdığı sosial qınaq üçün uyğun standart deyil.Bu məqalədə üç fərqli Avropa ölkəsinin – Xorvatiya, Niderland və İsveç hüquq sistemlərinin zorlama cinayətində təqsirin ehtiyatsızlıq formasını necə tənzimlədiyi, bu sahədə qəbul edilən konseptual modellər, qanunvericilik islahatlarının arxasındakı motivlər və praktiki tətbiqdə ortaya çıxan mürəkkəb hüquqi detallar müqayisəli şəkildə təhlil ediləcəkdir.

1. Xorvatiya: 2011-ci il cinayət qanunvericiliyi islahatı, ehtiyatsızlıqdan törədilən zorlamanın tətbiqi təcrübəsi

Xorvatiya cinayət hüququnda 2011-ci ildə qəbul edilmiş və 1 yanvar 2013-cü ildə qüvvəyə minmiş yeni Cinayət Məcəlləsi şəxsiyyətin cinsi azadlığı əleyhinə cinayətlər sahəsində ən radikal dəyişikliklərlə yaddaqalan islahat olmuşdur. Bu islahat çərçivəsində qanunverici razılıq (*expressis verbis*) anlayışını xüsusi olaraq müəyyən etmiş və onu "bu seçimi etmək və ifadə etmək qabiliyyətinə malik şəxsin könüllü hərəkəti" kimi formalaşdırmışdır. Eyni zamanda qanunvericilikdə razılığın mövcud olmadığı ehtimal edilən xüsusi halların siyahısı təqdim edilmiş, hüquqi razılıq vermək üçün minimum yaş həddi isə 14-dən 15-ə qaldırılmışdır. [2, s.127]İslahata qədər Xorvatiya cinayət hüququnda zorlama yalnız qəsdən törədilə bilən bir cinayət kimi tənzimlənirdi. İttiham tərəfi təqsirləndirilənin zərərçəkmişin razılığı olmadan hərəkət etdiyini bildiyini və bunu istədiyini (*dolus directus*) və ya belə bir ehtimalı dərk etdiyi halda bunu şüurlu şəkildə qəbul edərək hərəkətinə davam etdiyini (*dolus eventualis*) sübut etməli idi. *Dolus eventualis* praktikada nadir hallarda rast gəlinsə də, məsələn, təqsirləndirilən şəxsin uzun illər həyat yoldaşına qarşı davamlı zorakılıq göstərdiyi və zərərçəkmişin müqavimət göstərməkdən qorxduğu hallarda tətbiq edilirdi; burada təcavüzkar birbaşa zor tətbiq etməsə də, zərərçəkmişin qorxu səbəbindən razı olmadığını dərk edir və bu riski qəbul edərək cinsi akta davam edirdi. Lakin 2011-ci il islahatı ilə qanunverici məsuliyyəti artırmaq məqsədilə ehtiyatsızlıq üzrə məsuliyyəti, yəni ehtiyatsızlıqdan zorlama cinayət tərkibini tətbiq etdi. Yeni tənzimləməyə əsasən, razılığın olmamasından xəbərsiz olan, lakin işin hallarına görə bunu bilməli olan şəxs təqsirin ehtiyatsızlıq formasına görə cəzalandırılır. Bu vəziyyət cinayət hüququnda faktiki səhvinin xüsusi bir növüdür. Faktiki səhv subyektin niyyətini istisna etsə də, qanunvericilikdə cinayət məsuliyyəti yaradır. Məhkəmə səhvin əsassız olub-olmadığını qiymətləndirərkən həm obyektiv, həm də subyektiv amilləri (konkret subyektin şəxsi xüsusiyyətlərini) nəzərə almalıdır. [10, s.140]Xorvatiyada bu dəyişikliyin rəsmi əsaslandırılması Böyük Britaniyanın 2003-cü il Cinsi Cinayətlər Aktından (SOA 2003) təsirlənmişdir. İslahatın tərəfdarları iddia edirdilər ki, Xorvatiya məhkəmələri zərərçəkmişin fiziki müqavimət göstərməsinə həddindən artıq diqqət yetirir və bu səbəbdən təqsirkarlar "mən dürüstcə onun razı olduğuna inanırdım" bəhanəsi ilə asanlıqla məsuliyyətdən yayına bilirdilər. Lakin Xorvatiya Ali Məhkəməsinin 1991-2016-cı illəri əhatə edən 25 illik məhkəmə təcrübəsinin təhlili göstərir ki, Ali Məhkəmə hələ islahatdan çox əvvəl zərərçəkmişin fiziki müqavimət göstərməsi tələbini rədd etmişdi. Məhkəmə qərarlarında davamlı olaraq vurğulanırdı ki, zərərçəkmişin geyim tərzi və ya əvvəlki cinsi həyatı razılığa təsir etmir, müqavimət göstərməmək zərərçəkmişi daha böyük təhlükəyə məruz qoymamaq üçün əsaslı ola bilər və təcavüzkarın yaratdığı "qorxu atmosferi" fiziki güc qədər təsirlidir. Xorvatiya məhkəmə təcrübəsində iki analoji cinayət hadisəsi (2004 və 2014-cü illərdə baş vermiş) mövcuddur ki, hər iki hadisədə həyat yoldaşını illərlə döyərək iradəsini sındıran ər evə kənar kişilər gətirmiş və qadını onlarla cinsi əlaqəyə məcbur etmişdir. Zərərçəkmiş şəxs olan qadının həyat yoldaşı gələn kişilərə bunun bir "seksual oyun" olduğunu və qadının da bundan zövq aldığını iddia etmişdir. Qadın qorxudan heç bir fiziki müqavimət göstərmədiyi üçün onunla cinsi əlaqədə olan kişilər şübhələnməmiş və köhnə qanunvericilik çərçivəsində yalnız şahid statusunda cinayət prosesinin iştirakçısı olmuşlar. Lakin sözügedən düzəliş tətbiq edildikdən sonra, bu kişilərin şahid qismində deyil, qadının razılığının olmamasına laqeyd yanaşdıqları üçün ehtiyatsızlıqdan zorlamada ittiham edilməsi hüquqi cəhətdən mümkün hala gəlir ki, bu da

cəza siyasətində mürəkkəb suallar doğurur. [10, s.159]

2. Niderland: Mövcud məcburetmə modelindən razılıq əsaslı yeni təklifə keçid

Niderland cinayət hüquq nəzəriyyəsi zorlama cinayətini Niderland Cinayət Məcəlləsinin 242-ci maddəsində təsbit olunmuş məcburetmə modelinə əsasən tənzimləyir. Bu modelə görə, zorlamanın əsas hərəkət elementi məcburiyyətdir və norma şəxsin cinsi bütövlüyünü qorumağı hədəfləyir. Məcburiyyət adətən güc tətbiqi, güc hədəsi, hər hansı digər hərəkət və ya bu hərəkətlərin hədəsi kimi dörd vasitəyə bölünür. Ali Məhkəmənin təcrübəsinə görə, məcburiyyət elə keyfiyyətdə olmalıdır ki, cinsi penetrasiya zərərçəkən üçün qaçılmaz olsun və ya cinayətkar onun geri çəkilə bilməyəcəyi təhlükəli vəziyyət yaratsın. Qeyd edilən maddəyə 1991-ci ildə «hər hansı digər hərəkət» ifadəsinin əlavə edilməsi məcburiyyətin miqyasını fiziki gücdən kənara çıxararaq genişləndirmişdir. Bu çərçivədə psixoloji təzyiq, asılılıq və ya iyerarxik münasibətlərdən (məsələn, həkim-xəstə münasibətləri, yaş fərqi və s.) sui-istifadə halları da «digər hərəkətlərlə məcburetmə» kimi qiymətləndirilə bilər. Bununla belə, mövcud subyektiv tərəf (*mens rea*) standartı ən azı dolayı qəsdin (*dolus eventualis*) mövcudluğunu tələb edir. Təqsirləndirilən şəxs ən azı cinsi əlaqənin zərərçəkmişin iradəsinə zidd baş verməsi və məcburiyyət nəticəsində qaçılmaz olması barədə yüksək riskdən xəbərdar olmalı və bu riski qəbul etməlidir. Məcburetmə modelinin ciddi çətinlikləri və boşluqları mövcuddur. Bu model cinsi avtonomiyanı tam qoruya bilmir, çünki məsuliyyət üçün məcburiyyətin sübutunu tələb edir. Razılığın açıq şəkildə olmadığı, lakin məcburiyyətin tətbiq edilmədiyi hallar (məsələn, zərərçəkmişin qorxu nəticəsində donub qalması - tonik hərəkətsizlik) bu modelin çərçivəsindən kənarda qalır. Həmçinin, zərərçəkmişin yatdığı və ya huşsuz olduğu vəziyyətlərdə məcburetmə tətbiq edilə bilmədiyi üçün bu hərəkətlər zorlama kimi deyil, Niderland Cinayət Məcəlləsinin 243-cü maddəsinə əsasən zərərçəkmişin köməksiz vəziyyətindən istifadə etməklə cinsi əlaqədə olma kimi tövsif edilir. [1, s.764]Bu çatışmazlıqları aradan qaldırmaq və cinsi avtonomiyanın tam qorunmasını təmin etmək məqsədilə Niderland qanunvericisi razılıq əsaslı yeni model təklif etmişdir. Təklif olunan yeni qanun çərçivəsində zorlama cinayəti iki yeni tərkibə bölünür və «iradəyə qarşı» baş verən cinsi fəaliyyətə fokuslanır. Bu islahatla "ehtiyatsızlıqdan zorlama" cinayət tərkibi tətbiq olunur və dörd ilədək müddətə azadlıqdan məhrum etmə cəzasını nəzərdə tutur. Ehtiyatsızlıqdan zorlamaya görə cinayət məsuliyyətinin yaranması üçün təqsirləndirilən şəxsin cinsi hərəkətin razılıqsız olduğuna dair «şübhələnmək üçün ciddi səbəbləri» (serious reasons to doubt) olmalıdır. Əgər bu cür ciddi şübhələr və ya razılığın olmamasına dair xarici göstəricilər mövcuddursa, təqsirləndirilən şəxsin üzərinə tərəfdaşın razılığını araşdırmaq öhdəliyi düşür o, bu öhdəliyi pozduqda və cinsi fəaliyyəti davam etdirdikdə ehtiyatsızlıqdan zorlamaya görə məsuliyyət daşıyır.Lakin bu təklif də nəzəri olaraq ziddiyyətlidir. Bir tərəfdən, qanunverici həddindən artıq kriminallaşdırmanın qarşısını almaq üçün ehtiyatsızlıq standartını çox yüksək müəyyən etmişdir («ciddi səbəblərin olması» tələbi), bu isə zərərçəkmişin passiv qaldığı daha qeyri-müəyyən hallarda bu normanın tətbiqini məhdudlaşdırır və qorunma miqyasını azaldır. Digər tərəfdən, əgər razılığın olmamasına dair siqnallar bu dərəcədə aydındırsa, hərəkətin davam etdirilməsi onsuz da dolayı qəsdin (*dolus eventualis*) mövcudluğunu sübut edir ki, bu da ehtiyatsızlıq formasının əlavə hüquqi dəyərini şübhə altına qoyur. [5, s.24]

3. İsveç: Könüllülük konsepti və ehtiyatsızlıqdan zorlamanın hüquqi-praktiki çətinlikləri

İsveç cinayət hüququnda 1965-ci ildən qüvvədə olan ənənəvi güc və istismar meyarlarına əsaslanan zorlama tərifi uzunmüddətli

müzakirələrdən sonra 1 iyul 2018-ci ildə «könüllülük» (voluntariness) prinsipinə əsaslanan model ilə əvəz edilmişdir. Yeni qanunvericilik gender bərabərliyini gücləndirmək, cəmiyyətdə cinsi davranış normalarını dəyişmək və «yalnız bəli cavabının razılıq olması, digər hər şeyin isə yox kimi şərh edilməli olduğunu» bəyan etmək üçün qəbul edilmişdir. Könüllülük qanunvericilikdə geniş mənada – söz, əməl və ya digər yollarla ötürülən «aktiv könüllü iştirak» kimi müəyyən edilmişdir.Bu islahatla eyni zamanda şəxsiyyətin cinsi azadlığı əleyhinə cinayətlər sisteminə yeni bir cinayət tərkibi – ehtiyatsızlıqdan zorlama (*səhlənkarlıqla zorlama* / *grov oaktsamhet*) əlavə edilmişdir. Bu maddə təqsirləndirilən şəxsin «kobud ehtiyatsızlığı» (*grov oaktsamhet*) nəticəsində törədilən hərəkətləri əhatə edir. Burada cinayətkar zərərçəkmişin könüllü iştirak etməməsi riskini dərk edib hərəkətini davam etdirdikdə və ya bu riskdən tamamilə bixəbər qaldıqda (lakin kobud ehtiyatsızlığına görə bunu bilməli olduqda) məsuliyyət daşıyır. İslahatın ilk illərində İsveçdə ümumi zorlama cinayətlərinə görə məhkumluq səviyyəsində 75% artım qeydə alınsa da, 2019-cu ildə çıxarılan 400 hökmdən yalnız 12-si ehtiyatsızlıqdan zorlama ittihamına əsaslanmışdır. İsveçin Cinayətlərin Qarşısının Alınması Şurasının (BRA) rəyinə görə, bu aşağı göstərici «kobud ehtiyatsızlıq» tələbinin qeyri-dəqiqliyi və onun minimum niyyət dərəcəsi sayılan «dolayı qəsd» (*likgiltighetsuppsåt*) ilə fərqləndirilməsinin məhkəmələr üçün son dərəcə çətin olması ilə izah edilir. [3, s.11]İsveç Ali Məhkəməsinin şərhinə əsasən, könüllülük daxili emosional vəziyyətə deyil, xarici davranışa əsaslanmalıdır. Lakin eyni faktiki davranış (məsələn, passivlik) həm könüllü iştirakın, həm də könüllü olmayan vəziyyətin ifadəsi ola bilər. Məhkəmələr bu passivliyin mahiyyətini müəyyən etmək üçün «vəziyyəti bütövlükdə qiymətləndirmək» metoduna əl atırlar ki, bu da hakimlərin subyektiv mülahizələrinə və cəmiyyətdə mövcud olan gender stereotiplərinə geniş yer buraxır. Bundan əlavə, İsveç təcrübəsində sübutların qiymətləndirilməsi prosesində ənənəvi gender rollarının, emosiyaların və «zorlama mifləri»nin (rape myths) hələ də güclü təsirə malik olduğu aşkar edilmişdir. Zərərçəkmişin etibarlılığı onun hadisədən dərhal sonra ağlaması və ya kədərlənməsi kimi «tipik zərərçəkmiş» emosional reaksiyaları ilə ölçülür. Əgər zərərçəkmiş bu stereotiplərdən kənara çıxan davranış nümayiş etdirərsə məhkəmə onun etibarlılığına şübhə ilə yanaşır və bəraət hökmü çıxarır. Təqsirləndirilən şəxsin isə hadisədən sonra «səmimi kədər» və peşmanlıq nümayiş etdirməsi məhkəmələr tərəfindən onun hərəkətində qəsdin deyil, yalnız ehtiyatsızlığın mövcudluğu kimi qiymətləndirilir ki, bu da emosiyaların hüquqi rasionallığa necə təsir etdiyinin bariz nümunəsidir. [8, s.210]

4. Azərbaycan və Avropa cinayət qanunvericiliyində zorlama cinayətinin subyektiv tərəfinin müqayisəli təhlili

İsveç, Niderland və Xorvatiya kimi Avropa ölkələrinin qanunvericiliyində "ehtiyatsızlıqdan zorlama" (negligent rape) anlayışı qəbul edilsə də, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (CM) bu əməli yalnız qəsdən törədilən cinayət kimi tövsif edir. Azərbaycan qanunvericiliyində bu yanaşmanın qorunub saxlanılmasını həm hüquq sisteminin fundamental prinsipləri, həm də praktiki reallıqlar baxımından tamamilə əsaslı və uyğun hesab edirik. Avropa modelində, xüsusən də İsveç təcrübəsində zorlama cinayəti «açıq razılığın olmaması» (consent-based) prinsipinə əsaslanır. Burada şəxs qarşı tərəfin razılığının olmadığını bilməli olduğu halda, diqqətsizlik və ya etinasızlıq göstərərək cinsi aktı davam etdirərsə, ehtiyatsızlıqdan zorlamaya görə məsuliyyət daşıyır. Lakin Azərbaycan CM-nin 149-cu maddəsi zorlamanı yalnız zor tətbiq etmə, hədə-qorxu və ya köməksiz vəziyyətdən istifadə ilə bağlayır. Bu hərəkətlərin xarakteri subyektin daxili iradəsinin yalnız qəsdə (birbaşa və ya dolayı) əsaslandığını göstərir. Milli qanunvericilikdə bu əməlin yalnız qəsd kimi

qalmasının bir neçə mühüm hüquqi və praktiki səbəbi var:Birincisi, təqsirsizlik prezumpsiyası və isbatetmə problemi. Azərbaycan cinayət hüquq nəzəriyyəsi və praktikasında daxili psixi münasibətin «ehtiyatsızlıq» (etinasızlıq və ya özünəgüvənmə) formasını obyektiv sübutlarla bərpa etmək qeyri-mümkündür. Bu, subyektiv mülahizələrə yol açaraq məhkəmə xətalarını kəskin artıra və insan hüquqlarının pozulmasına səbəb ola bilər.İkincisi, cinayət məsuliyyətinin ədalətlilik prinsipi. Zorlama fərdin azadlığına və mənəviyyatına qəsd edən ağır cinayətlərdən biridir. Bu cür ictimai təhlükəliliyi olan bir əməlin ehtiyatsızlıq formasında tövsifi, cinayətin cəmiyyət üçün təhlükəlilik dərəcəsini və onun sosial mahiyyətini zəiflədə bilər. Ağır cinayətlərdə təqsir forması aydın və birmənalı olmalıdırÜçüncüsü, milli hüquq düşüncəsi və mədəni kontekst. Qərb cəmiyyətlərində fərdi münasibətlərin hüquqiləşdirilməsi fərqli səviyyədədir. Azərbaycan cəmiyyətində isə bu növ münasibətlərin kriminal-hüquqi tənzimlənməsində qəsd elementinin mütləqliyi, hüquq sisteminin sabitliyini qoruyur və sui-istifadə hallarının qarşısını alır. Avropa ölkələrinin təcrübəsi liberal dəyərlərə əsaslansa da, Azərbaycan cinayət hüququ üçün klassik təqsir nəzəriyyəsinin və qəsd prinsipinin qorunması daha effektivdir. Mövcud yanaşma qanunvericiliyin daxili harmoniyasını təmin edir, isbatetmə prosesində xaosun qarşısını alır və ədalətli mühakimə prinsiplərinə tam cavab verir.

Nəticə

Müxtəlif ölkələrin hüquq sistemlərinin müqayisəli təhlili göstərir ki, şəxsiyyətin cinsi azadlığı əleyhinə cinayətlərdə ehtiyatsızlıq standartının tətbiqi cinsi avtonomiyanın qorunması məqsədilə irəliyə doğru atılmış mühüm addım kimi təqdim edilir. Bu normativ yeniliyin cinsi muxtariyyəti daha aydın və birbaşa qoruyacağı, mövcud daxili cinayət qanunvericiliklərini beynəlxalq standartlara uyğunlaşdıracağı qeyd edilsə də, ciddi konseptual və praktiki çətinliklərlə müşayiət olunur. İslahatların əsas məqsədi cinayətkarın zərərçəkmişin daxili iradəsini öyrənmək və razılığını təsdiqləmək öhdəliyini artırmaqdır, lakin yuxarıda sadalanan ölkələrin təcrübəsində bu konseptin tətbiqi fərqli nəticələr vermişdir. Razılıq üçün zəruri qabiliyyətlər və biliklər, eləcə də razılıq üçün tələb olunan nəzarət (və ya seçim) kimi əsas elementlərin aydınlaşdırılması bu kontekstdə vacib görünür. Xorvatiya nümunəsində qanunvericilik səviyyəsində ehtiyatsızlıqdan zorlamanın tətbiqinin Xorvatiya Ali Məhkəməsinin artıq formalaşdırdığı mütərəqqi təcrübə fonunda zəruri olmadığı, əksinə cinayət arealını əsassız şəkildə genişləndirərək sui-istifadələrə yol açа biləcəyi müəyyən edilmişdir. Niderland təcrübəsində isə mövcud məcburetmə modelinin boşluqlarını doldurmaq üçün razılıq əsaslı modelə keçid alqışlansa da, ehtiyatsızlıq üçün müəyyən edilmiş yüksək həddə («ciddi şübhələrin olması») normanın praktiki effektivliyini azaldır və dolayı qəsdlə ehtiyatsızlıq arasında sərhədləri zəiflədir. İsveç təcrübəsi isə aydın şəkildə nümayiş etdirir ki, könüllülük və ehtiyatsızlıq normaları qəbul edilsə belə, məhkəmələr hələ də subyektiv sübutları qiymətləndirərkən cəmiyyətdə kök salmış gender stereotiplərindən, «tipik zərərçəkmiş» və «tipik təcavüzkar» obrazlarından tam azad ola bilməmişlər.Nəticə etibarilə, yalnız qanunvericilik mətnlərinin dəyişdirilməsi cinsi zorakılıq hallarının azalması və ədalətli mühakimənin qurulması üçün kifayət deyil. Hüquqi normaların effektiv tətbiqi üçün hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşlarının peşəkar hazırlığının artırılması, və cəmiyyətdə cinsiyyət stereotiplərinin aradan qaldırılmasına yönəlmiş geniş maarifləndirmə tədbirlərinin həyata keçirilməsi zəruridir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Keiler, J. (2024). *From coercion to consent: Dutch rape law reform and the complexities of consent.* Maastricht Journal of European and Comparative Law, 30(6), 760–782.
2. Mrčela, M., Vuletić, I., & Livazović, G. (2020). *Negligent Rape in Croatian Criminal Law: Was Legal Reform Necessary?* Review of Central and East European Law, 45(1), 126–160.
3. Wallin, L., Uhnoo, S., Wettergren, Å., & Bladini, M. (2021). *Capricious credibility – legal assessments of voluntariness in Swedish negligent rape judgements.* Nordic Journal of Criminology, 22(1), 3–22.
4. Burgin, R. (2019). *Persistent narratives of force and resistance: Affirmative consent as law reform.* British Journal of Criminology, 59(2), 296–314.
5. Sjölin, C. (2015). *Ten years on: Consent under the Sexual Offences Act 2003.* The Journal of Criminal Law, 79(1), 20–35.
6. MacKinnon, C. (2016). *Rape redefined.* Harvard Law & Policy Review, 10(2), 431.
7. Finch, E., & Munro, V. (2005). *Juror stereotypes and blame attribution in rape cases involving intoxicants.* British Journal of Criminology, 45(1), 25–38.
8. Temkin, J., Gray, M. J., & Barret, J. (2018). *Different functions of rape myth use in court: Findings from a trial observation study.* Feminist Criminology, 13(2), 205–226.
9. Estrich, S. (1987). *Real rape.* Harvard University Press, 160.
10. Turković, K., & Radačić, I. (2011). *Rethinking Croatian rape laws: Force, consent and the contribution of the victim.* In C. McGlynn & V. E. Munro (eds.), *Rethinking Rape Law: International and Comparative Perspectives.* Routledge, 179

Муршудов Рашад Рамиль оглу,
Докторант кафедры уголовного права и криминологии
юридического факультета
Бакинского государственного университета

НЕБРЕЖНОСТЬ ФОРМА ВИНЫ В ПРЕСТУПЛЕНИЯХ НА СЕКСУАЛЬНОЙ ПОЧВЕ: КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ И СРАВНИТЕЛЬНО-ПРАВОВОЙ АНАЛИЗ

РЕЗЮМЕ

В исследовании анализируется стандарт небрежности в преступлениях против сексуальной свободы на фоне опыта Хорватии, Нидерландов и Швеции и обосновывается существующий в азербайджанском законодательстве принцип умысла. Хотя европейская модель устанавливает ответственность за «отсутствие согласия» и небрежность, статья 149 Уголовного кодекса Азербайджана связывает изнасилование только с применением силы, угроз или использованием беспомощного положения. В статье рассматриваются правовые и практические причины сохранения подхода, основанного на умысле, в национальной правовой системе, а также проблемы, создаваемые этим стандартом в зарубежных странах, такие как злоупотребления, высокий стандарт доказывания и гендерные стереотипы. В заключение подчеркивается, что изменения только законодательного текста недостаточно, и правовые реформы должны поддерживаться институциональной подготовкой и образованием.

Murshudov Rashad Ramil,
Doctoral candidate, Department of Criminal Law and Criminology,
Faculty of Law, Baku State University

THE RECKLESS FORM OF GUILT IN RAPE CRIMES: CONCEPTUAL FOUNDATIONS AND COMPARATIVE LEGAL ANALYSIS

SUMMARY

The study analyzes the standard of negligence in crimes against sexual freedom against the background of the experiences of Croatia, the Netherlands and Sweden, and justifies the existing principle of intent in Azerbaijani legislation. Although the European model establishes liability for "lack of consent" and negligence, Article 149 of the Azerbaijani Criminal Code links rape only to the use of force, threats or use of a helpless situation. The article examines the legal and practical reasons for the preservation of the approach of intent in the national legal system, and the problems created by this standard in foreign countries, such as abuse, high standard of proof and gender stereotypes. In conclusion, it is emphasized that changing the legislative text alone is not enough, and legal reforms should be supported by institutional training and education.

Redaksiyaya daxilolma tarixi: 24.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 25.08. 2026
Çapa qəbul olunma tarixi: 28.08.2026